AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
RİYAZİYYAT VƏ MEXANİKA İNSTİTUTU

AZ1141, Azərbaycan Respublikası
Bakı , B.Vahabzadə küçəsi, 9.

Tel.: (99412), 539-39-24, 538-24-44, 539-91-92
Fax: (99412) 539-01-02, e-mail: rmi@imm.az

№ 38/9-152

«14» iyun 2017 il

**SINAM Məhdud Məsuliyyətli**
**Cəmiyyətin direktoru**
**cənab Əbülfət Rəhmanova**

**Azərbaycan Respublikası AMEA Riyaziyyat və Mexanika İnstitutunda FARABI (BTMMN) layihəsində tətbiq olunan SERP proqramına aid**

**RƏY MƏKTUBU**

SİNAM şirkəti tərəfindən yaradılmış "Müəssisə Resurslarının İdarə edilməsi" (SERP) avtomatlaşdırılmış sistemi büdcədən maliyyələşən təşkilat və müəssisələrin resurslarının idarə edilməsi üçün unikal sistemdirki, bizim AMEA Riyaziyyat və Mexanika İnstitutunda da uğurla tətbiq edilmişdir.

SERP sistemi insan resurslarının idarə edilməsini, beynəlxalq və milli standartlara uyğun mühasibatlığın aparılmasını və standartlara uyğun hesabatların alınmasını təmin edir.

Sistemdə mövcud olan Ştat cədvəli modulu müəssisənin ştat cədvəlinin yaradılması, ştatlarda olan dəyişikliklərin izlənilməsi, açılmış vakansiyalara işçilərin işə qəbul edilməsi proseslərinin avtomatlaşdırılması, lazımi hesabatların yaradılması işinə xidmət edir.

Şəxsi kartlar modulu şəxsi kartların yaradılmasını, kartlara baxış, onların redaktə edilməsi və silinməsi, şəxsi kartlar üzrə çoxparametrli axtarışların aparılması, məzuniyyət və əmək haqqı ilə əlaqənin yaradılması funksiyalarının mövcudluğu sistemin üstün cəhətləri kimi qəbul edilir.

Əmək haqqı modulu SERP sisteminin digər modullarının köməyi ilə artıq daxil edilmiş məlumatlardan istifadə etməklə müəssisəmizdə əmək haqqının hesablanması zamanı aparılan işlərin avtomatlaşdırılmasına xidmət göstərir.

SERP sisteminə daxil olan XİİS-lə mübadilə modulunda büdcədən maliyyələşən təşkilat kimi müəssisəmizin büdcə smetaları daxilində faktiki xərclərinin aparılması prosesində *xəzinə sənədlərinin* yaradılması avtomatik və düzgün formada yerinə yetirilir.

Rəy nəticəsi olaraq, müəssisəmiz üzrə işlərin təşkili və idarə edilməsi işinin avtomatlaşdırılmasına görə SİNAM şirkətinin kollektivinə minnətdarlığımızı bildiririk və bu əməkdaşlığımızın davamlı olmasını arzu edirik.

**Baş mühasib :** **Qumru Sadıqova**